AZƏRBAYCAN

4 fevral 2025-ci il

# Polad Bülbüloğlu - 80

**Ömrünün ən qayğısız, ən şirin xatirələrinin ünvanı olan bu şəhərdə - Bakıda 1945-ci il fevralın 4-də dünyaya göz açıb. Ata-anasının sevgisi, nəvazişi uşaqlıq illərini həyatının xoş çağlarına çevirib. Xalq artisti Polad Bülbüloğlu hər kəsin tanıdığı bir ailənin övladı olub. Onun atası SSRİ Xalq artisti, professor Bülbül dövrünün ən məşhur müğənnilərindən biri idi. Ancaq buna görə özünü tay-tuşlarından fərqli hiss etməyib. Bütün günü həmyaşıdları ilə oynadığı oyunlar isə sadə olduqları qədər də maraqlı olub: "Bizim oyunlarımız çox sadə idi. Yumru daşları atırdıq, hansımızın daşı hədəfə dəysəydi qalib olurdu. İndiki uşaqlar televizordan, kompüterdən əl çəkmirlər. Bu, fiziki cəhətdən də ziyanlıdır. Bütün günü dinc dayanmır, ağaclara dırmaşır, dama çıxır, ora-bura qaçır, yıxılır, beləcə böyüyürdük. Orta məktəbə gedəndən sonra da çörək yeyib qaçırdıq həyətə. Anamız güclə bizi evə salırdı ki, dərslərimizlə məşğul olaq", - Polad Bülbüloğlu müsahibəsində belə deyib.**



# Uzun ömrün akkordları

## İlk ifanın unudulmaz həyəcanı

Kiçik yaşlarından dinlədiyi musiqilər, nəğmələr elə o vaxtlardan könlünə yol tapıb. Polad Bülbüloğlu musiqi sevgisi ilə boya-başa çatıb. Atası onu hər yerə özü ilə aparıb. Səhnəyə ilk çıxışı isə 1957-ci ildə Opera və Balet Teatrında atasının 60 illik yubileyində olub. O zaman on iki yaşı vardı. O, qəflətən səhnəyə çıxanda atası təəccüblənib, oğluna görə bir az da həyəcanlanıb. Ancaq atasının həyəcanı onunku ilə müqayisəyə gəlməzdi. Polad Bülbüloğlu məşhur pianoçu Çingiz Sadıxovun müşayiəti ilə "Evləri var xana-xana" mahnısını oxuyub. Yadında təkcə gurultulu alqış sədaları qalıb. Atası kreslodan durub. Polad Bülbüloğlu onu qucaqlayıb təbrik edib…

On dörd yaşında isə ilk dəfə Cəfər Cabbarlının yubileyində "Ölkəm" romansını atası üçün pianoda müşayiət edib. Sonralar Bülbülün ömrünün axırına - 1961-ci ilin sentyabrınadək konsertmeyster kimi onunla konsertlərə gedib, evdə məşq edib, yeni əsərlər öyrənib.

Bir gün evdə məşq edəndə görüb ki, atası "Sənsiz" romansını oxumaq istəmir. Bülbül bunun səbəbini oğluna danışıb. Polad Bülbüloğlu o gün öyrənib ki, Bülbülün dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin cənazəsi önündə müşayiətsiz oxuduğu "Sənsiz" romansı hamını göz yaşlarına boğub. Böyük sənətkarın fövqəladə ifası, hətta Azərbaycanın ozamankı rəhbəri Mircəfər Bağırovu da ağladıb. O gündən Bülbül bu əsəri oxumayıb: "Bir gün rayonların birində idik, atam bu əsəri çalmağımı istədi. Sonra konsertlərdə "Sənsiz"i oxumağa başladı. Onu bütün qəlbi ilə oxuyurdu. Ona görə bu əsər mənə çox əzizdir. Qarabağ hadisələrindən, Şuşanın işğalından sonra bu mahnı mənim üçün xüsusi bir rəmzə çevrildi. Hər dəfə onu eyni həyəcanla oxuyanda gözlərimin önündə Şuşa, Cıdır düzü canlanır", - Polad Bülbüloğlu deyib.

Onun on altı yaşı olanda atası vəfat edib. Bu, Polad Bülbüloğlu üçün yalnız ata itkisi olmayıb. Atası sənətdə onun ən böyük ustadı idi. Aralarında ata-oğul münasibətindən başqa yaradıcılıq münasibəti də vardı. O, atasından həm musiqi sənətinin incəliklərini, həm də öz sənətinə sonsuz dəyər verməyi, tamaşaçılarına ehtiramla yanaşmağı öyrənib. Ona görə Polad Bülbüoğlu deyib: "Bülbül kimi müğənnilərin tamaşaçılara göstərdikləri diqqət, hörmət biz cavanlar üçün dərs idi. Biz belə tərbiyə almışıq. Səhnəyə çıxırsansa, dəməli, insanlar üçün nümunə olmalısan. Mən heç vaxt mağazadan aldığım kostyumda səhnəyə çıxmırdım. Xüsusi tikilməli idi, ona görə yox ki, bəyənmirdim. Salonda kimsə eyni kostyumdan geyinibsə, sənətçi adiləşir. İndikilər cins şalvarda, cırıq köynəkdə, ya nə bilim, nədə çıxırlar səhnəyə. Mən bunu qəbul etmirəm. Bu cür geyinibsə, lap ifası gözəl olsa da, artıq mənim üçün o ifaçı yoxdur, qulaq asa bilmirəm".

Əslində, böyük müğənni Bülbül oğlu Poladı bəstəkar görmək istəyib. O isə öz yolunu seçmişdi. Uşaqlıqdan həmişə deyib ki, mən oxuyan olacağam. Oğlunun öz-özünə zümzümə etdiyini görən Bülbül: "Ay oğul, istəyirəm musiqi necə yaranır onu öyrənəsən, bəstəkar olasan, oxumağı mən sənə öyrədərəm", - deyib. Ancaq qismət olmayıb. 1961-ci ildə Bülbül vəfat edib. Həyat yolunu onsuz davam etdirməli olub.

Atasının əsl adı Murtuza olub. Bir vaxtlar ona Şuşada gözəl səsinə görə Bülbül deyiblər. Sonralar pasport alanda isə bu ad yazılıb: Bülbül Rza oğlu Məmmədov. Atasından sonra onun adını soyad kimi daşımaq fikrinə düşüb. O zaman bu, çətin idi. Ali Sovetin Rəyasət Heyətinədək müraciət edib. Orada ədliyyə şöbəsində bildiriblər ki, bu mümkün deyil. Ancaq fikrindən daşınmayıb. 1966-cı ildən afişalarda, radioda soyadı Bülbüloğlu gedib. Nəhayət, arzusuna çatıb. Pasportunu dəyişdirə bilib. 1968-ci ildən rəsmən Bülbüloğlu soyadını daşıyır.

## Müəllimi Qara Qarayevin tövsiyəsi

O, mahnılar yazanda hələ ali məktəbə daxil olmamışdı. Polad Bülbüloğlu 1963-cü ildə Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası), bəstəkar Qara Qarayevin sinfinə daxil olub. Müəllimi bir gün ona deyib: "Səni sinfimə götürürəm, ancaq o şərtlə ki, mən icazə verməyənədək bütün bunları - mahnını, estradanı yaddan çıxaracaqsan. Konservatoriya proqramı üzrə dərslərini oxuyacaqsan, ya da mən sənin atanın xahişini yerinə yetirə bilməyəcəyəm". Polad Bülbüloğlu atasının xahişinin nə olduğu ilə maraqlanıb. Qara Qarayev cavab verib ki, atan səni bəstəkar görmək arzusunda idi, bir dəfə konservatoriyada mənə söylədi ki, Qara, mənə bir şey olsa, xahiş edirəm, Poladı götür öz sinfinə, istəyirəm bəstəkar olsun. Müəlliminin bu sözlərindən sonra üç-dörd il mahnı yazmayıb. Bir dəfə atasının masasının üstündəki bir kitab diqqətini çəkib. "Bayatılar" adlı həmin qırmızı üzlü, qalın kitabı götürüb vərəqləyib. Atasının bəzi bayatılara nişan qoyduğunu görüb. Polad Bülbüloğlu Azərbaycan Dövlət Radio Komitəsinin ovaxtkı sədri Teymur Elçinin yanına gedib. Həmin bayatıları ona göstərib niyyətini bildirib. Teymur Elçin onun fikrini alqışlayıb: "Çox yaxşı fikirdir, bunları yaz". Polad Bülbüloğlu müəlliminin icazə vermədiyini bildirəndə Teymur Elçin: "Sən yavaş-yavaş yaz. Sonra lazım olsa, Qara müəllimdən xahiş eləyərik. O özü də baxar, sənə kömək edər", - deyib.

Həmin bayatılar əsasında dörd mahnı bəstələyib. Bir gün özü əhvalının yaxşı vaxtında məsələni müəlliminə açıb. O da "notları gətir, baxım"", - deyib. Polad Bülbüloğlu yazdığı mahnıları ifa edib. İlk dəfə ona "mahnıları elə yaxşı da oxuyursan" deyən də müəllimi olub. Qara Qarayev mahnılarla bağlı bir-iki qeyd də edib. Beləliklə, müəllimi icazəsini verib. Sonra həmin mahnıları Moskvada lentə aldırıb. Bakıya qayıtdıqdan sonra Qara Qarayevdən xahiş edib: "İstəyirəm siz qulaq asasınız, sonra bu mahnıları radioya verim". Müəllimi "Ayrılıq" adlı mahnını dinləyəndən sonra yenidən dinləmək istəyib. Və tövsiyələrini verib: "Oxuya bilərsən. Bu mahnıları oxuya-oxuya populyar olacaqsan, daha çox bu yolu tutacaqsan. Amma mən belə olmasını istəmirəm. Sən ciddi klassik musiqilər də yaza bilərsən, ona görə bu balansı saxlamalısan".

Gənc ifaçı yalnız radioda, televiziyada oxuyub. Amma müəllimi haqlı çıxıb. Bəstəkarı və ifaçısı olduğu mahnılar Polad Bülbüloğlunu bütün Sovet İttifaqında populyar edib. O, 1970-ci ildə Rostovda 5 min nəfərlik zalda gündə 3 konsert verəndə boş yer tapmaq mümkün olmayıb. Stadionlarda konsertlərinə 30-35 min nəfər gəlib. Onda da filmlərə, tamaşalara musiqi yazanda, yaxud ictimai işə görə fəaliyyətinə ara verib. Ancaq bəstəkar olduğunu heç vaxt yaddan çıxarmayıb.

## Yubiley sevincləri

O, 1973-cü ildə Əməkdar artist, 1982-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. Polad Bülbüloğlu 1994-cü ildə TÜRKSOY-un sədri seçilib, 2015-ci ildən Dağıstan Respublikasının Əməkdar incəsənət xadimi, 2017-ci ildən Türkmənistanın, 2024-cü ildən Özbəkistanın və Başqırdıstanın Xalq artistidir.

Polad Bülbüloğlu 2005-ci ildə "İstiqlal", 2015-ci ildə "Şərəf", 2019-cu ildə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunub. 2020-ci ildə Azərbaycanın ən ali ordeni olan "Heydər Əliyev" ordeninə layiq görülüb. Dünən isə səksən yaşlı sənətkar Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Uzun illər müxtəlif vəzifələrdə çalışıb. 1987-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının direktoru və bədii rəhbəri olub. 1988-ci ildən 2006-cı ilədək mədəniyyət naziri vəzifəsində çalışıb. 2006-cı ildə Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri təyin olunub. 2024-ci ilədək həmin vəzifəni yerinə yetirib. Polad Bülbüloğlu 1995-2000-ci illər Azərbaycan Respublikası Milli Məclisinin I çağırış deputatı olub. 2024-cü ildə isə 124 saylı Şuşa-Ağdam-Xocavənd Seçki Dairəsi üzrə Milli Məclisə deputat seçilib.

O, doğma xalqının çox ağır günlərinin də şahidi oldu. 1990-cı ildə keçmiş sovet ordusunun Bakıda törətdiyi 20 Yanvar faciəsinin vurduğu yaralar qaysaq bağlamamış, işğalçı ermənilər Qarabağda, Şərqi Zəngəzurda günahsız soydaşlarımıza divan tutdular. Erməni vandallarının törətdikləri qırğınlar, soyqırımlar, ərazilərimizin iyirmi faizinin işğal olunması hər birimizin qəlbinə dağ çəkdi. Qarabağ və Şərqi Zəngəzur otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında qaldı.

İşğal illərində çoxumuzun uzaqdan-uzağa ağrısını yaşadığımız yerlərə Polad Bülbüloğlu iki dəfə səfər etdi. Və düşmənin əzəli yurdlarımızı necə dağıdıb, yerlə yeksan etdiklərini öz gözləri ilə gördü. O zaman Polad Bülbüloğlundan soruşmuşduq: "Atanızın dünyaya göz açdığı gözəl Şuşada dəyişməyən nə qalıb?" Kədərlə cavab vermişdi: "Əsas küçələr qalıb. Çox heyflər olsun ki, hər şey bərbad haldadır. Orada gördüklərim tez-tez kino lenti kimi gözlərimin önündən keçir. Atamın heykəlinin üzünün yarısı qalıb. Bir neçə il qabaq Azərbaycana gətirdiyim üç güllələnmiş heykəldən də biri atamındır. Atanın güllələnmiş heykəlini görmək oğula necə təsir edər? Bu, ermәni vəhşiliyinin sübutudur".

İndi isə Qarabağ Azərbaycana, həmin güllələnmiş heykəllər isə öz doğma yurduna qovuşub. İşğaldan azad edilmiş bütün ərazilərimiz kimi Polad Bülbüloğlunun ata yurdunda, Şuşada da geniş tikinti-quruculuq, abadlıq işləri həyata keçirilir. Şəhərdə bərpa olunmuş tarixi binalar arasında Bülbülün ev muzeyi də var. Deputat, Xalq artisti Polad Bülbüloğlu yubileyini belə böyük sevinclərlə qalib xalqın övladı olmağın qüruru ilə qarşılayır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*